# “Azərbaycan Sənaye Bankı” ASC-nin

# Dividend Siyasəti

Bakı – 2019

## 1. Ümumi müddəalar.

1.1. "Azərbaycan Sənaye Bankı" ASC-nin (bundan sonra - Bank) Dividend siyasəti Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinə, Bankın Nizamnaməsinə və korporativ idarəetmə sahəsində ən yaxşı yerli və xarici təcrübələrinə uyğun olaraq hazırlanmışdır.

1.2. Hazırki siyasətin məqsədi - dividendlərin ödənilməsi haqqında qərarın qəbul edilməsinin, dividendlərin həcminin, ödəniş müddətlərinin və qaydalarının Bank səhmdarlarına aydın və şəffaf şəkildə olan mexanizminin müəyyən edilməsidir.

1.3. Dividend siyasəti Bankın korporativ idarəetmə sisteminin bir hissəsi olub, dividend ödənişlərinin həcminin müəyyən edilməsi zamanı Bank və onun səhmdarlarının maraqlarının balanslaşdırılmasına və səhmdarların Azərbaycan Respublikasının qanunvericiliyi və Bankın Nizamnaməsi ilə müəyyən edilmiş hüquqlarının ciddi şəkildə gözlənilməsinə əsaslanır.

1.4. Dividendlərin ödənilməsi haqqında qərarın verilməsi, bankın öhdəliyi deyil, hüququdur.

## 2. Əsas anlayışlar.

2.1. Bu siyasətin məqsədləri üçün aşağıdakı termin və anlayışlardan istifadə olunur:

2.1.1. **Dividend** – malik olduqları səhmin kateqoriyası və sayına proporsional olaraq səhmdarlar arasında bölüşdürülən Bankın xalis mənfəətinin bir hissəsidir.

2.1.2. **Dividend siyasəti -** Bankın xalis mənfəətinin istifadəsi istiqamətində apardığı siyasətdir.

2.1.3. **Səhmdar(lar)** – Bankın bir və ya daha çox sayda səhmlərinin qanunvericilik ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və (və ya) hüquqi şəxs(lər)dir.

2.1.4. **Xalis mənfəət** – Bankın maliyyə hesabatlarına əsasən müəyyən edilən və vergitutmadan sonra Bankın sərəncamında qalan gəlir.

2.1.5. **Dividendlərin ödənilməsi haqqında qərar** – dividend almaq hüququ olan şəxslərə dividendlərin ödənişini həyata keçirmək haqqında Səhmdarların Ümumi Yığıncağının qərarıdır.

2.1.6. **Dividend ödənişi** – dividend almaq hüququ olan şəxslərin bank hesablarına müvafiq pul məbləğinin köçürülməsidir.

2.1.7. **Dividendlərin ödənilmə müddəti** – dividendlərin ödənilməsi üzrə öhdəliyin icra günü və ya dividend ödənişlərinin yerinə yetirilməli olduğu müddət (dövr). Dividendlərin ödənilməsi öhdəliyi həmin gün və ya həmin dövr ərzində yerinə yetirilməlidir.

2.1.8. **Tələb olunmayan dividendlər** – bank hesabı rekvizitlərinin Banka təqdim olunmaması və ya bu kimi digər səbəblərdən Bank tərəfindən ödənilə bilməyən dividendlərdir.

## 3. Bankın dividend siyasətinin prinsipləri.

3.1. Bankın dividend siyasəti aşağıdakı prinsiplərə əsaslanır:

3.1.1. Azərbaycan Respublikasının və beynəlxalq qanunvericiliyi ilə müəyyən edilmiş normalara Bank və onun səhmdarları tərəfindən ciddi şəkildə riayət edilməsi;

3.1.2. Bankın kapitallaşdırılması, gəlirliliyinin yüksəldilməsi və investisiya cəlbediciliyinin artırılması;

3.1.3. Dividendlərin həcminin müəyyən edilməsinin və ödənilməsinin şəffaf, aydın və ədalətli mexanizminin qurulması;

3.1.4. Bank və onun səhmdarlarının maraqlarının qarşılıqlı uyğunluğu;
3.1.5. Korporativ idarəetmənin təkmilləşdirilməsi məqsədi ilə dividend siyasətinin daimi yenilənməsi.

## 4. Dividendin ödənilmə şərtləri.

4.1. Bankın səhmdarlarına dividendlərin ödənilməsinin şərtləri aşağıdakılardır:
4.1.1. Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada hazırlanmış maliyyə hesabatı ilə müəyyən edilən Bankın xalis gəlirinin mövcudluğu;
4.1.2. Dividendlərin ödənilməsindən əvvəl və ödənilməsi nəticəsində Bankın xalis aktivlərinin dəyəri nizamnamə kapitalının miqdarından çox qalması;
4.1.3. Dividendlərin ödənilməsi ilə bağlı Azərbaycan Respublikasının qanunvericiliyində məhdudiyyətlərin olmaması;
4.1.4. Bankın səhmdarlarının ümumi yığıncağına dividend ödənişinin həcmi barədə Müşahidə Şurası tərəfindən təklifin verilməsi və ya səhmdarların öz təşəbbüsü;
4.1.5. Bankın səhmdarlarının ümumi yığıncağı tərəfindən dividendlərin ödənilməsi haqqında qərarın qəbul edilməsi.

## 5. Dividendlərin hesablanması qaydası.

5.1. Dividendlərin ödənilməsinin mənbəyi - vergitutmadan sonra Bankın xalis mənfəətidir. Xalis mənfəət Bankın illik təsərrüfat-maliyyə fəaliyyətinin nəticəsi barədə kənar audit tərəfindən hesabat təsdiq edildikdən sonra, həmin hesabata əsasən müəyyən edilir.
5.2. Dividendlər hər bir səhm üçün hesablanmalıdır.
5.3. Hər bir Səhmdara hesablanan dividendlərin həcmi sahib olduqları hər bir səhmə düşən dividend məbləğinin cəmləşdirilməsi yolu ilə müəyyən edilir.
5.4. Hər bir səhmə düşən dividendin həcmini hesablamaq üçün dividendlərin ödənilməsinə ayrılan xalis mənfəət adi və tam ödənilmiş səhmlərin faktiki sayına bölünür. Bu zaman bankın balansında öz adına olan səhmlər nəzərə alınmır. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.
5.5. Bank adi səhmlər üzrə dividendlərin hesablanmasını (bölüşdürülməsini) imtiyazlı səhmlərin bütün növləri üzrə dividendlərin hesablanmasından (bölüşdürülməsindən) sonra həyata keçirir.
5.6. Dividendlərin hesablanmasında (bölüşdürülməsində) ilk növbəlilik hüququnu verən imtiyazlı səhmlər üzrə dividendlər digər imtiyazlı səhmlər üzrə dividendlərdən əvvəl bölüşdürülür.
5.7. Dividendlər hesablanarkən səhmlərin hər bir növü və nominalı üzrə hər səhmə düşən məbləğ eyni olmalıdır.
5.8. Dividendin həcmi maliyyə ilinin sonu xaliş mənfəətin həcminə əsasən müəyyən edilir. Əgər səhmdarlara il ərzində aralıq dividendlər ödənilibsə, onda bu rəqəm səhmdarların ümumi yığıncağının qərarına əsasən maliyyə ilinin nəticələrinə əsasən elan edilmiş dividend məbləğindən çıxılır.
5.9. Səhmdarların ümumi yığıncağının qərarına əsasən illik dividendlərin ödənilməsi məqsədilə xalis mənfəətdən hər hansı bir faiz müəyyən edilə bilər.

## 6. Dividendlərin ödənilməsi haqqında qərarın qəbul və elan edilməsi qaydası.

6.1. Dividendlərin ödənilməsi haqqında qərar bankın Müşahidə Şurasının təklifi ilə Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilir.
6.2. Dividendlərin ödənilməsinə dair təklifində Bankın Müşahidə Şurası aşağıdakıları nəzərə almalıdır:
6.2.1. Azərbaycan Respublikasının qanunvericiliyini;
6.2.2. Maliyyə hesabatlarında əks olunan, Bankın sərəncamında qalan xalis mənfəətin həcmini;
6.2.3. Bankın uzunmüddətli inkişaf perspektivinə dair Bank və səhmdarların maraqlarını;
6.2.4. Bankın maliyyə-təsərrüfat planlarını.
6.3. Dividendlərin ödənilməsi haqqında qərar, ötən maliyyə ilinin nəticələrinə dair Səhmdarların Ümumi Yığıncağının iclasında qəbul edilir. Səhmdarların Ümumi Yığıncağı dividendlərin ödənilməsi və ya ödənilməməsi haqqında qərar qəbul etmək və ya etməmək hüququna malikdir.
6.4. Dividendlərin ödənilməsi haqqında Səhmdarların Ümumi Yığıncağının qərarında ən azı aşağıdakılar müəyyən edilməlidir:
6.4.1. Dividendlərin ödənilməsinə yönəldilən xalis mənfəətin məbləği;
6.4.2. Dividendlərinin ödənişi elan edilən səhmlərin növü;
6.4.3. Hər bir səhm üçün dividendin məbləği və ya dividendin ödəniləcəyi faiz dərəcəsi;
6.4.4. Dividendlərin ödənilməsi müddəti;
6.4.5. Dividendlərin ödənilmə forması.
6.5. Dividendlərin ödənilməsi haqqında Səhmdarların Ümumi Yığıncağı tərəfindən qəbul edilən qərar, həmçinin, göstərilən məsələ ilə bağlı səsvermənin nəticələri Azərbaycan Respublikasının qanunvericiliyi və Bankın nizamnaməsi ilə müəyyən edilmiş qaydada səhmdarların nəzərlərinə çatdırılır.
6.6. Bank, səhmdarları dividendlərin həcmi, forması, ödənilmə müddəti və qaydası haqqında qanunvericiliklə müəyyən edilmiş qaydada, həmçinin, məlumatları Bankın rəsmi korporativ saytında yerləşdirmək yolu ilə açıqlayır.
6.7. Bank dividend almaq hüququ olan bütün səhmdarlara şifarişli məktub göndərməklə və ya müvafiq bildirişi imzalatmaqla dividendlərin elan edilməsi barədə məlumatlandıra bilər.
6.8. Bankın dividendlərin ödənilməsi ilə bağlı öhdəlikləri dividendlərin ödənilməsi haqqında qərarın qəbul edildiyi gündən etibarən yaranır.
6.9. Elan edilmiş dividendlərin səhmdarlara ödənilməsi Bankın öhdəliyidir. Bank bu öhdəliyinin icra edilməməsinə görə Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən səhmdarlar qarşısında məsuliyyət daşıyır.

## 7. Dividendlərin ödənilmə müddətləri.

7.1. Elan edilmiş dividendlər 30(otuz) gün ərzində səhmdarlara ödənilməlidir.
7.2. Bank, dividendlərin ödənilməsi üzrə öhdəliyini dividendlərin ödənilmə müddəti ərzində istənilən gün yerinə yetirmək hüququna malikdir.
7.3. Bank, hesablanmış dividendlərin ödənilməsi müddətləri üzrə ayrı-ayrı səhmdarlara hər hansı bir üstünlük vermir.

## 8. Dividendlərin ödənilmə qaydaları.

8.1. Dividendlər ödəniş gününə olan səhmin sonuncu sahibinə ödənilir. Səhmlərin sonuncu sahibi dedikdə, sonuncu reyestrdən çıxarışda göstərilən səhmdarlar nəzərdə tutulur.
8.2. Bank yalnız elan edilmiş dividendləri ödəyir. Dividendlərin ödənilməsi haqqında Səhmdarların Ümumi Yığıncağının qərarı olmadan Bank dividendləri ödəmək, səhmdarlar isə onların ödənilməsini tələb etmək hüququna malik deyillər.
8.3. Bank, dividendlərin ödənişini pul formasında Azərbaycan manatı ilə həyata keçirir.
8.4. Bank, dövriyyədə olan səhmlər üzrə aralıq (rüblük, yarımillik) və illik dividendlər ödəyə bilər.
8.5. Dividendlərin ödənilməsi yalnız köçürmə yolu ilə həyata keçirilir.
8.6. Bankın İdarə Heyəti elan edilmiş dividendlərin vaxtında və tam ödənilməsini təmin edir.
8.7. Bank, səhmlər üzrə dividendlərin ödənilməsində səhmdarlarla münasibətdə vergi agenti qismində çıxış edir. Bank, dividendlərdən vergi məbləğinin hesablanması, saxlanması və köçürülməsini həyata keçirir, yaxud da Azərbaycan Respublikasının vergi və digər məcburi ödənişlər haqqında qanunvericiliyinə müvafiq olaraq vergitutmanın qaydası və müddətlərinə güzəştli rejim tətbiq edir.
8.8. Azərbaycan Respublikasının vergi və digər məcburi ödənişlər haqqında qanunvericiliyi ilə nəzərdə tutulmuş vergi tutulmaları çıxdıqdan sonra dividendlərin qalan məbləği səhmdarların hesablarına köçürülür.
8.9. Elan edilmiş dividendlər Bankdan asılı olmayan səbəblərə görə müəyyən olunmuş müddətdə səhmdarlara ödənilməmişdirsə (tələb olunmayan dividendlər), Bank onların ödənilməsini Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada həyata keçirir.
8.10. Səhmdarlar, eyniləşdirmə məlumatlarının, qeydiyyat (yaşayış) yeri, bank rekvizitləri də daxil olmaqla dəyişməsi barədə Səhmdarların reyestrinə daxil etmək üçün Banka dərhal məlumat verməlidirlər.
8.11. Səhmdarların bank hesabı rekvizitlərinin dəyişməsi və bu barədə Banka məlumatın verilməməsi nəticəsində Bank tərəfindən dividendlərin ödənilməsi üzrə öhdəliklərin yerinə yetirilməməsinə və bununla bağlı dəymiş zərərə görə Bank məsuliyyət daşımır.
8.12. Tələb olunmayan dividendlərin ödənilməsi vaxtına qədər Azərbaycan Respublikasının qanunvericiliyinə dəyişiklik və ya əlavələr edilərsə, o zaman belə tələb olunmayan dividendlərin ödənilməsi zamanı Bank, ödəniş zamanı qüvvədə olan Azərbaycan Respublikasının vergi qanunvericiliyinə müvafiq olaraq verginin yenidən hesablanmasını həyata keçirir.

## 9. Yekun müddəalar.

9.1. Bu Siyasət Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edildiyi gündən qüvvəyə minir.
9.2. Əgər bu Siyasətin hər hansı bir bəndi və ya maddəsi Azərbaycan Respublikasının qanunvericiliyi və ya Bankın nizamnaməsi ilə ziddiyyət təşkil edirsə, onda həmin bənd və ya maddəyə müvafiq dəyişikliklər edilənədək işdə Azərbaycan Respublikasının Qanunvericiliyi rəhbər tutulmalıdır.